# Gil-təknə abidəsi

**Masallı rayonunun Tatyan kəndi ərazisində, kəndin cənub-şərq tərəfində, Köhnə Qışlaq adlanan ərazidə qəbir abidəsi üzə çıxmışdır.**

AMEA Arxeologiya və Antropologiya İnstitunun aparıcı elmi işçisi, t.ü.f.d, dosent Anar Ağalarzadə bölgəyə ezam olunmuş, abidəyə və muzeyə təhvil verilmiş arxeoloji materiallara baxış keçirmişdir. İlk dəfə qeydə alınmış bu sahənin geniş bir təbii təpə üzərində nekropol olduğu müəyyən edilmişdir. Ərazidə mövcud olan Yeyənkənd Söbül Meşəliklərinin mühafizəsi məqsədilə xəndək qazıntısı zamanı təxminən 40 sm dərinlikdə dağılmış bu qəbirdən iki ədəd dəmir qılınc, bir ədəd qara rəngli boşqab tipli saxsı qabın fraqmentləri, iki ədəd qırmızı rəngli küpəyə məxsus qırıqlar və insan sümükləri götürülmüşdür. Tapıntılar arasında aşkar edilmiş gildən hazırlanan və təknəyə məxsus olması ehtimal edilən iri fraqment dəfn abidəsinin gil-təknə qəbir olması ehtimalını söyləməyə imkan verir.

Fikrimizcə, bu tapıntının gil-təknə qəbir olması sübut olunarsa, ilk dəfə olaraq Azərbaycanın cənub-şərq bölgəsində küp, daş qutu və torpaq qəbirlərdən sonra varlığı müəyyən edilmiş yeni dəfn strukturu olacağı istisna deyildir.



Tapıntılar arasında silahlar əsas üstünlüyə malik olmaqla iki fərqli tip qılınclardır. Analoji qılınclar İranın Gilan vilayətinin Miyanrud nekropolundan üzə çıxmış və tədqiqatçılar bu materialları e.ə. I minilliyin ikinci yarısına aid edirlər.

**Anar AĞALARZADƏ**
**AMEA Arxeologiya və Antropologiya İnstitutunun aparıcı elmi işçisi, t.ü.f.d, dosent**